Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Fevral 2024

# Peşə təhsili və təlimi üçün - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Peşə təhsili və təlimi üçün milli viza almaqdan ötrü **yalnız kənar viza xidməti olan „VisaMetric“ şirkətinə** müraciət edilməlidir. Viza sənədlərinin qəbulu mərkəzinin ünvanı:
**D. Əliyeva küç., 106, Winter Park Plaza, birinci mərtəbə, Bakı.**
Qəbul vaxtının təyin olunması üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz:
https://www.visametric.com/Azerbaijan/Germany/de/p/terminvereinbarung

Sənədlərə baxılma müddəti 2-4 həftədir. Əgər siz əvvəllər mövsümi məşğulluq məqsədinə xidmət etməyən yaşayış icazəsi, Aİ-nın „Göy Kartı“, „İCT(intra-corporate transfer)-Kartı“, mobil „İCT-Kartı“, daimi yaşayış icazəsi, Aİ-nın daimi yaşayış icazəsi, deportasiyadan əvvəl müvəqqəti qalma icazəsi (Duldung) və ya Almaniyada sığınacaq üçün qərardan əvvəl müvəqqəti yaşamaq icazəsi əsasında ölkədə qalmısınızsa və ya ölkədə qalmağınızı dayandırmaq üçün Sizə qarşı tədbirlər görülübsə, sənədlərin işlənməsi 3 aya qədər davam edir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

○Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin 1 ədəd surəti)*

- Şəxsiyyət vəsiqəsi və ya Azərbaycan vətəndaşlığı olmayan şəxslər üçün etibarlı olan “ Azərbaycanda yaşamaq icazəsi ” sənədi *(əsli + 1 ədəd surəti)*
- 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax)
- Peşə təhsili haqqında müqavilə/Ausbildungsvertrag (əsli və 1 ədəd surəti) ən az aşağıdakı məlumatlar daxil olmaqla:
  - peşənin dəqiq adı
  - pəşə təhsilinin keçiriləcəyi müəssisəyə və/ və ya peşə məktəbinə dair məlumatlar (faktiki iş yerinin ünvanı və müəssisədə əlaqələndirici şəxsin məlumatları)
  - həftəlik iş saatları haqqında məlumat (tam stat/yarım ştat)
  - peşə təhsili üçün ərizəçiyə ödəniləcək əmək haqqı (vergilər çıxmadan aylıq məbləğ avro ilə)
  - peşə təhsilinin müddəti
- Tələb olunarsa peşə təhsilinin alınacağı müəssisənin Sənaye və Ticarat Palatasında (İHK) qeydiyyatı (məs.: hotelçilik sahəsində peşələr)
- Orta təhsil və peşə fəaliyyəti haqqında tərcümeyi-hal
- Tələb olunarsa orta və ya ali təhsili təsdiq edən sənədlər (diplom və diploma əlavə) (əsli + 1 ədəd surəti)
- Təhsil almaq üçün yerin və peşə seçimini əsaslandıran motivasiya məktubu
- Federal ölkə ərazisində maddi təminata dair sənəd: Sənəd ilə təsdiq olunan məbləğ BAföG/ Federal təhsilə dəstək qanununa əsaslanır. Əgər peşə təhsili üçün aylıq əmək haqqının brutto məbləği ən az

1.016,-- Avro olduqda, bu məbləğ maddi təminatın mövcudluğu kimi isbat olunur. Qidalanma və/ və ya yaşayış yeri təhsil müəssisəsi tərəfindən qarşılanırsa bu məbləğ müvafiq olaraq azalır (hər birinə görə 150,-- avro məbləğinə qədər).

- Yaşam xərclərinin təhsil müəssisəsinin veridiyi əmək haqqı ilə təmin olunmadığı (və ua tam təmin olunmadığı) təqdirdə, maliyyə vəsaitinin olması aşağıdakı sənədlərlə təsdiq oluna bilər:
- Dondurulmuş bank hesabı ən az 12 ay müddətinə çatışmayan vəsait məbləğində
  - (Peşə təhsili üçün aylıq əmək haqqının brutto məbləği 1.016 Avrodan çıxılaraq)
  - Məsələn: Əgər sizin peşə təhsili üçün aylıq əmək haqqınız (brutto) 850,-- Avrodursa, peşə təhsili üçün tələb olunan 1.016,-- Avrodan 850,-- Avro çıxılaraq qalıq məbləğ 166,-- Avro olmaqla 12 aylıq ümumi məbləğ üçün 1.992,--Avro hesablanaraq şəxsi dondurulmuş bank hesabı təsdiq edilməlidir.
- Almaniyada yaşamaq haqqında qanunun 66-68 §§-da qeyd olunmuş öhdəlik haqqında
  - bəyanatın əsli (6 aydan köhnə olmamaqla) və öhdəliyə götürən şəxsin maliyyələşdirmə iqtidarında olmasının sənəd ilə sübutu (yalnız təsdiq kifayət etmir)
- Təhsili aldığınız dilə dair bilikləri təsdiq edən sertifikat ən az B1 səviyyəsində təsdiqi

  *və ya*

  təhsil ocağı tərəfindən dil biliklərinin yoxlanıldığı və təhsil üçün kifayət edəcəyinə dair təsdiq

  *və ya*

  təhsilə hazırılıq üçün dil kursunun keçirilməli olduğu barədə sənəd
- Tələb olunduğu təqdirdə iş icazəsi və ya onun veriləcəyinin təsdiqi ( məs., həkimlər üçün təhsilin davamı zamanı)
- Səfər sığortası (nəzərdə tutulan səfər tarixindən işə başladığınız tarixədək qüvvədə olan, bütün Şengen dövlətləri üçün etibarlı və sığorta ödənişinin minimal məbləği 30.000 avro olan tibbi sığorta haqqında sənəd)